# Bizi Zəfərlərə aparan Bayraq

## 103 yaşlı Azərbaycan bayrağının müqəddəs mənəvi-ideoloji missiyası

**Faiq Ələkbərli**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi,dosent

**(əvvəli ötən sayımızda)**

İştə millətimizin ictimai həyatının islahı üçün üzərinə dayandığımız üç payeyi-mədəniyyət!»

M.Ə.Rəsulzadə bu üç prinsipə sadiq qalaraq, onları Azərbaycan-türk bayrağında ifadə etmiş və Parlamentin ilk iclasındakı çıxışında onun siyasi-ideoloji mənasını belə izah etmişdi: «Müstəqil Azərbaycanı təmsil edən üçboyalı bayrağı Milli Şura qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarı-əhrararanəsini (özgürlüksevərliyini) təmsil edən bu üçboyalı baryaq daima başımızın üstündə ehtizaz (dalğalancaqdır) edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir!». M.Ə.Rəsulzadə parlamentin növbəti iclasında isə milli bayrağın mənəvi-ideoloji mənasını bir qədər də açmışdı: «Bizim yaxın məqsədlərmizdən biri olan Azərbaycan muxtariyyətini tələb edərkən həm sağdan, həm də soldan hücumlara düçar olurduq. Sağdaklar bir nöqtədən Azərbaycan muxtariyyətini inkar edirdilər. Sağdan deyirdilər ki, Azərbaycan-Azərbaycan deyə müsəlmanları parçalayır, türklük bayrağı qalxızarkən - nəuzu billah (Allah eləməsin)- islama xətər vurursunuz. Soldan da iddia edirdilər ki, Azərbaycan davası bizi inqilabçı, hürriyyətpərvər Rusiya demokratiyasından ayırır, xan, bəy hökuməti düzəltməyə səbəb olurg Daima Azərbaycan məfkurəsinin müdafiəçisi olan firqəmiz üçün bu gün o böyük məqsəd hasil olmuşdur. Çünki artıq gərək sağlar, gərəksə sollar Azərbaycanı inkar deyil, var qənaətlərilə isbat edirlər. Çünki artıq Azərbaycan fikri üzərində müsəlman firqələri arasında ixtilafi-nəzər yoxdur. Çünki cəmiyyətimizin zehnində Azərbaycan istiqlalı fikri yer tutmuş, yerləşmişdir. Çünki üçrəngli o məğrur bayraq artıq siyasətən hamımızı birləşdirmişdir».

M.Ə.Rəsulzadənin bu sözlərində inkarolunmaz elə bir həqiqət var idi ki, 70 illik SSRİ imperiyası belə milli bayraq fəlsəfəsini Azərbaycan-türk insanının şüurunda silə bilməmişdi. Əksinə, milli bayraqdakı üçboya və səkkizguşəli aypara onların ruhuna və mənəviyyatın əbədi həkk olunmuşdu. Hətta bu boyalar insanlar üçün o qədər doğmalaşmışdı ki, bəzən onlardan birinin digərini ifadə etməsi halları belə olmuşdu. Məsələn, 1919-cu ilin 28 mayında «Bir yaş» məqaləsində tanınmış ziyalımız Üzeyir Hacıbəyli qeyd edirdi ki, bayrağımızın mənəvi mənası olaraq al (qırmızı) boya türkçülüyə, yaşıl boya islamlığa, mavi boya isə mədəniyyətə işarədir. Deməli, Ü.Hacıbəyli qırmızı boyanı türkçülüyə aid edərək mavi rəngi mədəniyyət mənasında qəbul etmişdir. Biz burada Ü.Hacıbəylinin nədən bayrağımızın boyalarına fərqli şəkildə yozmasını geniş izah etmədən, burada mavi rəngin mədəniyyət kimi yozulmasına diqqəti cəlb etmək istərdik. Fikrimizcə, mədəniyyət və müasirlik anlayışları heç də bir-birinə tamamilə yaxın istilahlar deyildir. Əgər «müasirlik» dar məna daşıyıb özündə yalnız bu günün dəyərlərini və tələblərini əks etdirsirə, «mədəniyyət» anlayış daha geniş məna kəsb edərək nəinki bu günün, həm də keçmişin və gələcəyin nişanəsidir. Eyni zamanda «mədəniyyət» anlayışında milli və dini dəyrlərlə yanaşı, Qərb-Avropa mədəniyyətinin mütərəqqi cəhətlərinin də öz əksini tapması mümkündür: demokratiya və mədəniyyət.



Bizə elə gəlir ki, bu baxımdan milli bayraqdakı boyaların fəlsəfi-ideoloji mənasını M.Ə.Rəsulzadə daha aydın ifadə etmişdi. Onun fikrincə, milli bayrağın məzmun və mənası «müasir bir türk və islam siyasi mövcudluğu» ilə bağlıdır. Burada qeyd edilən «müasir bir türk və islam» kəlməsi göstərir ki, «müasirlik» dedikdə, ilk növbədə milli və dini sahədə, yəni islamda və türklükdə yeniləşmə, milli və bəşəri mədəniyyətin bütövlüyü - dünyəvilik (layiqlik) nəzərdə tutulur. Bunu, M.Ə.Rəsulzadənin bayrağın mənası ilə bağlı, kitabda öz əksini tapmış xüsusi qeydi, açıqlaması da bir daha təsdiq edir. O yazır: «Azərbaycan bayrağındakı mavi rəng - türklüyü, yaşıl rəng - müsəlmanlığı, al rəng də - təcəddüd (yeniləşmə - F.Ə.) və inqilab rəmzi olmaq həsbilə əsrliyi təmsil edər ki, möhtərəm Ziya Gökalp bəyin «türk millətindənəm, islam ümmətindənəm, qərb mədəniyyətindənəm» - düsturunu ifadə etmiş olur». Deməli, Rəsulzadə «qərb mədəniyyətindənəm» anlayışını yeniləşmə və inqilab kimi başa düşmüşdür. Bu baxımdan «yeniləşmə və inqilab» dünyəvilik (layiqlik) məfhumu ilə bağlıdır.

Bizə elə gəlir ki, Azərbaycan türk bayrağında öz əksini tapmış göy rəngin türklüyü ifadə etməsinin də böyük mənəvi-ideoloji anlamı var. Bu boya ilk növbədə, qədim türklərdə mövcud olmuş dini inanc - Tanrıçılıq dini ilə bağlıdır. Qədim türklər Tanrıya «Göy Tanrı» deyə müraciət edirdilər. Türklərdə «göy» səmanın rəngini bildirdiyi üçün müqəddəs sayılırdı. Buna görə də, göy boya müqəddəs göyün olduğu kimi, həm də Tanrının simvolu idi. Bir sözlə, mavi rəng əski türk inancları ilə bağlı olaraq türklüyün rəmzi, simvolu kimi Azərbaycan bayrağına daxil edilmiş, XX əsrin əvvəllərində milli tərəqqi və milli istiqlalın siyasi doktrinası olan «türkləşmək, müasirləşmək, islamlaşmaq» ideoloji modelinin bir istiqamətini simvollaşdırmışdır. Bu baxımdan türkçülüyün simvolu olan göy boya, eyni zamanda tanrıçılığın rəmzidir. Göy boya türkçülüyü əks etdirdiyi qədər də, tanrıçılığı - təkallahlılığı da ifadə edir. Bu anlamda türkçülük tanrıçılıq, yəni tək olan Allaha inam deməkdir. Deməli, islamda yaşıl boya, tanrıçılıqda isə göy boya tək olan Allahı əks etdirir və hər ikisində dini-fəlsəfi məna vardır. Bu baxımdan türklərin tanrıçılıqdan sonra islama tapınmalarını başa düşmək çətin deyildir.

Milli bayrağımızdakı boyaların mənəvi-ideoloji mənası ilə bağlı Əhməd Cavad, Cəfər Cabbarlı və b. şair-mütəfəkkirlərmiz də dəyərli fikirlər irəli sürmüşdü. Bu baxımdan Əhməd Cavadın yazdığı «Azərbaycan bayrağına» şeiri dövrünün ən gözəl incilərindən biri hesab oluna bilər. O, bu şeirində Türküstandan, Turandan, üç boyalı türk bayrağından, türklərin soykökündən, türk ellərinin birliyindən və s. bəhs edir:

**«Gedərkən Turana çıxdın qarşıma,**
**Kölgən Dövlət quşu, qondu başıma!**
**İzn ver gözümdə coşan yaşıma -**
**Dinlətsin dərdini aha, bayrağım!**

**Qayi xan soyundan aldığın rəngi,**
**Qocalmış Elxanla müsəlman bəgi.**
**Elxanın övladı, dinin dirəgi,**
**Gətirdin könlümə səfa, bayrağım!**

**Köksümdə tufanlar gəldim irəli,**
**Öpüm kölgən düşən mübarək yeri!**
**Allahın yıldızı, o gözəl pəri,**
**Sığınmış qoynunda Aya, bayrağım!».**

Başqa tanınmış Azərbaycan türk ziyalısı Cəfər Cabbarlı 1919-cu ildə «Azərbaycan» qəzetində nəşr olunan «Azərbaycan bayrağına» şeirində isə üç boyalı-üç mənalı Azərbaycan türk bayrağının fəlsəfi-ideoloji izahını belə verir:

**«Kölgəsində ay əyilib bir gözəli qucmada.**
**Qucaşaraq sevdiyilə yüksəklərə uçmada,**
**Şu görünüş bir ananın şəfqətinə oxşayor.**
**Düşündükcə zövqlərimi, vicdanımı oxşayor.**
**Bu ay, yıldız, boyaların qurultayı nə demək?**
**Bizcə böylə söyləmək!**
**Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,**
**Bir türk oğlu olmalı!**
**Yaşıl boya islamlığın sarsılmyan imanı,**
**Ürəklərə dolmalı!**
**Şu al boya azadlığın, təcəddüdün fərmanı,**
**Mədəniyyət bulmalı.**
**Səkkiz uclu şu yulduz da səkkiz hərli OD YURDU!**
**Əsarətin gecəsindən fürsət bulmuş quş kibi,**
**Səhərlərə uçmuşdur.**
**Şu hilal da türk bilgisi, düzgün sevgi nişanı,**
**Yurdumuzu qucmuşdur!**
**Allah, əməllərim edib şu bayrağı intiqal,**
**Birər-birər doğru olmuş, bir ad almış: İSTİQLAL!**
**Yürəyində bir dilək var, o da doğru kəsilsin,**
**O gün olsun bir göy bayraq Turan üstə açılsın».**

Bizə elə gəlir ki, Azərbaycan təhsilində və tədrisində yuxarıda qeyd etdiyimiz bilgilər öz doğru əksini taparsa, Azərbaycan-türk insan milli bayraq məfkurəsini daha yaxından mənimsəyər və ona mənən də sahib çıxar. Bunun üçün, bu gün yeni nəslə Hüseynzadələrin, Rəsulzadələrin, Cavadların, Cabbarlıların və başqalarının milli ruhlu ideyaları aşılanmalı və onlarda milli bayraq sevgisi yaradılmalıdır.

> *M.Ə.Rəsulzadə bu üç prinsipə sadiq qalaraq, onları Azərbaycan-türk bayrağında ifadə etmiş və Parlamentin ilk iclasındakı çıxışında onun siyasi-ideoloji mənasını belə izah etmişdi: «Müstəqil Azərbaycanı təmsil edən üçboyalı bayrağı Milli Şura qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarı-əhraranəsini (özgürlüksevərliyini) təmsil edən bu üçboyalı baryaq daima başımızın üstündə ehtizaz (dalğalancaqdır) edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir!»*

> *Biz burada Ü.Hacıbəylinin nədən bayrağmızın boyalarına fərqli şəkildə yozmasını geniş izah etmədən, burada mavi rəngin mədəniyyət kimi yozulmasına diqqəti cəlb etmək istərdik. Fikrimizcə, mədəniyyət və müasirlik anlayışları heç də bir-birinə tamamilə yaxın istilahlar deyildir. Əgər «müasirlik» dar məna daşıyıb özündə yalnız bu günün dəyərlərini və tələblərini əks etdirsirə, «mədəniyyət» anlayış daha geniş məna kəsb edərək nəinki bu günün, həm də keçmişin və gələcəyin nişanəsidir. Eyni zamanda «mədəniyyət» anlayışında milli və dini dəyrlərlə yanaşı, Qərb-Avropa mədəniyyətinin mütərəqqi cəhətlərinin də öz əksini tapması mümkündür: demokratiya və mədəniyyət...*